


# İlham Əliyevin qlobal humanitar missiyası

## İqtisadi qüdrəti yüksələn Azərbaycan dünyada həm də donor ölkə kimi tanınır

**1990-cı ilin əvvəllərində işğal faktı, daxili siyasi böhranlar, vətəndaş qarşıdurması ilə üz-üzə olan, bütün sahələrdə çöküş yaşayan, iqtisadi tənəzzülə uğrayan Azərbaycanın həm də bir milyon qaçqın və məcburi köçkünə sahib ölkə olaraq beynəlxalq yardımlara böyük ehtiyacı var idi. Qarabağ və Şərqi Zəngəzurdan didərgin salınan və Azərbaycanın müxtəlif bölgələrində qurulan çadır düşərgələrində, vaqonlarda, yataqxanalarda və digər bu kimi yerlərdə məskunlaşan yüz minlərlə keçmiş məcburi köçkünü gənc dövlətimizin demək olar ki, daxili imkanları hesabına təmin etmək gücü yox idi. Buna görə də həmin illərdə bir sıra ölkələrdən Azərbaycana humanitar yardımlar gəlirdi.**

Onu da qeyd edək ki, ölkəmizin ən keşməkeşli dövründə, keçmiş məcburi köçkünlərimizin özgə yardımlarına möhtac olduğu həmin ağır zamanda belə erməni məkri ilə üz-üzə qalmışdıq. Belə ki, 1992-ci ildə "Azadlığa Dəstək Aktı" adlı qanunun 907-ci bölməsinə düzəlişə əsasən, ABŞ hökumətinin Azərbaycanın rəsmi strukturlarına yardım göstərilməsi qadağan olundu. Erməni lobbisinin təsiri ilə qəbul olunan bu qəddar qərar dədə-baba torpaqlarından zorla didərgin salınan, suya, çörəyə möhtac şəkildə acınacaqlı vəziyyətdə vaqonlarda, çadır şəhərciklərində yaşamağa məcbur olan bir milyona yaxın azərbaycanlının ABŞ-nin rüşvətxor konqresmenləri tərəfindən görməzdən gəlinməsi, onların həyatına biganəlik nümayiş etdirilməsinin göstəricisi idi. Ancaq üzərindən 33 il keçdikdən sonra haqq öz yerini tapdı. Prezident İlham Əliyevin ABŞ lideri Donald Trampın rəsmi dəvəti ilə bu ilin avqustunda Vaşinqtona işgüzar səfəri çərçivəsində Ağ Ev rəhbərinin "Azadlığa Dəstək Aktı"na 907 saylı düzəlişin icrasının dayandırılması haqqında sənəd imzalaması ilə haqsızlığa son verildi.

"Prezident Trampın bu rəmzi jestinin bizim üçün çox dərin mənası var. Təbii ki, bu gün Azərbaycanın xarici yardıma ehtiyacı yoxdur, ölkəmiz xarici yardımdan asılı deyil. İqtisadiyyatımız sabitdir, xarici borcumuz ÜDM-in yeddi faizindən də azdır. Özümüz donor ölkəyə çevrilmişik. Beləliklə, bu gün 907-ci düzəliş əsasən siyasi və rəmzi məna daşıyır. Bu, artıq ədalətsizliyin artıq aradan qalxdığını göstərir", - deyə Vaşinqtonda Azərbaycan media nümayəndələrinə müsahibəsi zamanı dövlətimizin başçısı İlham Əliyev həm Azərbaycanın qət etdiyi inkişaf yoluna diqqət çəkdi, həm də bu tarixi qərarın mühüm əhəmiyyətini vurğuladı.

### Məhrumiyyətlərdən qurtuluş

15 iyul 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıtması, qaçqın soydaşlarımızın və keçmiş məcburi köçkün vətəndaşlarımızın məhrumiyyətlərdən qurtuluşu oldu. Hakimiyyətə gəldiyi ilk gündən dədə-baba yurdlarını itirmiş bu insanlara həssas diqqət və qayğı göstərən Ümummilli Lider Heydər Əliyev söyləmişdi ki, bu insanların məskunlaşdıqları yerlərdə yaşamaları, əmək fəaliyyəti ilə məşğul olmaları üçün bütün imkanlardan istifadə edirik: "Biz əlimizdən gələni edirik ki, sizin yaşayışınız müəyyən qədər normal olsun. Amma aydındır ki, yerini, yurdunu itirmiş insanların yaşayışı çətindir. Bu, sizi də, bizi də incidir".

Həmin dövrdə Ulu Öndər Heydər Əliyevin şəxsi diqqəti sayəsində keçmiş məcburi köçkünlərin qayğı və problemlərinin həlli istiqamətində mühüm adımlar atılmağa başlandı. Heydər Əliyev dəfələrlə çadır şəhərciklərində olaraq orada yaşayan insanların şəraitləri ilə maraqlanır, vətən nisgilli bu insanların problemlərini dinləyir, onların həlli istiqamətində mümkün olan bütün işlərin görülməsinə çalışırdı.

O da təsadüfi deyildi ki, Ulu Öndərin ölkəmizdə əsasını qoyduğu uğurlu neft strategiyası sayəsində əldə edilən ilk vəsait də məhz qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilmişdi. İnsanlarımızın olduqca acınacaqlı və çətin şəraitdə yaşamağa məcbur olduğu çadır şəhərciklərinin ləğvinə başlanılmışdı.

7 sentyabr 2001-ci ildə Heydər Əliyevin "Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" və 13 may 2002-ci il "Biləsuvar rayonu ərazisində yerləşən beş çadır düşərgəsində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" fərmanlarına uyğun olaraq, Biləsuvar, Füzuli və Ağdam rayonlarının ərazisində 5081 ailədən ibarət 22800 məcburi köçkün üçün bütün zəruri sosial-texniki infrastrukturu ilə birlikdə 20 qəsəbə salındı və Biləsuvar rayonu ərazisindəki 5 çadır düşərgəsi 2003-cü ilin iyun ayında ləğv edildi.

### Azərbaycan nümunəsi

2003-cü ildən - hakimiyyətə gəldiyi ilk ildən etibarən Prezident İlham Əliyevin də gündəliyində duran prioritet məsələlərdən biri qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində idi.

Cəmi 4 il ərzində - 2003-cü ildən 2007-ci ilə qədər ölkədəki bütün çadır şəhərcikləri ləğv olundu. 2020-ci ilə qədər məcburi köçkünlər üçün 100-dən çox qəsəbə-şəhərcik salındı. Ötən müddət ərzində Azərbaycanda 300 mindən çox məcburi köçkün mənzillərlə, fərdi evlərlə təmin olundu, həmçinin onların problemləri ardıcıl şəkildə öz həllini tapdı.

"Hər bir məcburi köçkün uzun illər ərzində dövlət tərəfindən aylıq müavinətlə təmin edilir. İndi dünyada bir neçə ölkədə məcburi köçkünlər vardır və bu ölkələrin sayı artır. Çünki müharibələr, toqquşmalar geniş vüsət alır, yeni köçkün şəhərcikləri salınır. Ancaq hesab edirəm ki, Azərbaycanda bu sahəyə göstərilən diqqət nümunəvi xarakter daşıyır, beynəlxalq təşkilatlar da bunu dəfələrlə təsdiqləyiblər. Çünki biz köçkünləri belə gözəl evlərlə təmin edirik. Evlərin həm quruluşu, həm daxili dizaynı, təchizatı göz oxşayır. Azərbaycan bu sahədə də qabaqcıl yerlərdədir və hesab edirəm ki, bu, bizim borcumuzdur, bunu biz edirik və edəcəyik".

28 may 2020-ci ildə - Müstəqillik Günündə məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılış mərasimində bu fikirləri səsləndirən Prezident İlham Əliyev qətiyyətlə onu da bəyan etmişdi ki, bütün Azərbaycan xalqı bilməlidir ki, bu, sizin üçün müvəqqəti yaşayış yeridir. Torpaqlarımız işğaldan azad ediləndən sonra biz bu gün hələ də işğal altında olan torpaqlarda buna oxşar gözəl binalar, şəhərciklər tikəcəyik, ermənilər tərəfindən dağılmış şəhərlərimizi yenidən quracağıq.

Prezident İlham Əliyevin həmin çıxışının üzərindən cəmi dörd ay ötdükdən sonra - 2020-ci ilin 27 sentyabrından etibarən Azərbaycan xalqı tarixindəki ən qürurlu günlərinə qədəm qoydu. Torpaqlarımız işğaldan azad edildi, suverenliyimiz təmin olundu. Keçən 5 illlik zaman dilimində Qarabağ və Şərqi Zəngəzurda möcüzəvi dirçəliş başlayıb. 30 il ərzində talanan, darmadağın edilən, daşı-daş üstündə qalmayan şəhər və kəndlərimizdə aparılan kompleks işlər bu yerlərə sürətli qayıdışa rəvac verdi. İllərlə vətəndə qəribçilik çəkən vətəndaşlarımızın ata-baba yurdlarında təhlükəsiz və ləyaqətli şəkildə yaşamaları üçün hər cür şərait yaradıldı. Artıq 20-dək şəhər və rayona 17 minə yaxın keçmiş məcburi köçkünün qayıtması Böyük qayıdışın uğurla gerçəkləşdirildiyini, Qarabağ və Şərqi Zəngəzura yenidən nəfəs verildiyini göstərir.

### Qlobal səyləri səfərbər etmək təşəbbüsü

Müstəqilliyinin bərpasının ilk illərində qarşılaşdığı problemləri mərhələli şəkildə və uğurla dəf edən Azərbaycan İlham Əliyev tərəfindən yürüdülən uzaqgörən və məqsədyönlü siyasət sayəsində bu gün hərbi, iqtisadi, siyasi, diplomatik qüdrəti getdikcə artan və öz gücünə arxalanan nüfuzlu ölkəyə çevrilib. Beynəlxalq problemlərin həllində fəal iştirak edən, onların dialoq yolu ilə aradan qaldırılması üçün əməli iş görən, çağırışlar edən Azərbaycan həm də ehtiyacı olan ölkələrə maliyyə və humanitar yardımlar göstərməsi ilə diqqət çəkir.

Azərbaycan Qoşulmama Hərəkatı ölkələrinin yekdil qərarı ilə 2019-2022-ci illər üzrə Qoşulmama Hərəkatına sədrliyə başlamışdı və sonra ölkəmizin sədrliyi müddəti yekdil qərarla daha bir il uzadıldı. 120 ölkə arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu və effektiv dövrünü yaşadı. COVID-19 pandemiyasının başlamasından dərhal sonra Qoşulmama Hərəkatı bu bəlaya qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış etdi.

Bu istiqamətdə atılan ilk uğurlu addımlardan biri 2020-ci ilin may ayında QH-nin onlayn Zirvə toplantısının keçirilməsi oldu. Eyni zamanda QH-nin sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü əsasında 2020-ci il dekabrın 3-4-də BMT Baş Assambleyasının COVID-19 pandemiyasına qarşı mübarizə üzrə xüsusi sessiyasının keçirilməsi böyük önəm kəsb etdi. Eləcə də İlham Əliyevin təşəbbüsü ilə QH-nin Azərbaycan sədrliyi tərəfindən əvvəlcə BMT-nin İnsan Hüquqları Şurasında, daha sonra isə BMT Baş Assambleyasında "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə layihələrinin irəli sürülməsi və qəbul edilməsi beynəlxalq əhəmiyyətli nailiyyətlərdir.

Respublikamız pandemiya dövründə 100-ə yaxın ölkəyə humanitar kömək etdi. Həmin çətin dövrdə Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatının üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı ya ikitərəfli kanallar, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə və humanitar yardımlar göstərdi.

Azərbaycan tərəfindən Afrika qitəsi ölkələrinə çoxtərəfli və ikitərəfli əsasda müxtəlif zamanlarda humanitar və inkişafa dəstək xarakterli yardımlar göstərilib. Afrikaya humanitar yardım sıralamasında Azərbaycan ilk 20 ölkə arasında yer alır.

2023-cü il fevralın 6-da Türkiyədə baş verən dəhşətli zəlzələ zamanı fəlakətin aradan qaldırılması üçün qardaş ölkəyə ilk beynəlxalq yardımı da məhz Azərbaycan təklif etdi. Dağıdıcı zəlzələnin fəsadlarının aradan qaldırılması üçün dövlətimiz qardaş ölkəyə hər cür dəstək göstərdi.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 16 mart 2023-cü ildə zəlzələ ilə əlaqədar Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə Zirvə görüşünün keçirilməsi dağıdıcı zəlzələnin fəsadlarının aradan qaldırılması istiqamətində mühüm əhəmiyyətə malik oldu.

Baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılması üçün Azərbaycanın qardaş Türkiyəyə etdiyi yardımların ümumi maliyyə dəyəri 31 milyon 510 min 900 ABŞ dolları təşkil edib. Həmçinin 13 milyon 397 min 883 ABŞ dolları birbaşa maliyyə yardımı şəklində təqdim olunub.

Eyni zamanda Prezident İlham Əliyevin xüsusi tapşırığı ilə Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin inşasına start verildi. 27,6 hektarlıq ərazini əhatə edən və bu il iki ölkənin lideri - İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən açılışı həyata keçirilən bu məhəllədə 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial obyektlər inşa olunub. Həmçinin məhəllədə məskunlaşacaq ailələr üçün 1595 ticarət obyekti də yaradılıb.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycanın "yaşıl gündəliyi" əsasında gerçəkləşən və təsirli qərarların qəbul olunduğu iqlim konfransı kimi tarixə düşdü. COP29 çərçivəsində Bakı Maliyyə Məqsədi (BMG) barədə razılıq əldə olundu, Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirildi, İtki və Zərər Fondu tam şəkildə institutlaşdırıldı, Bakı Adaptasiya Yol Xəritəsi yaradıldı. Bütün bunlar və beynəlxalq konfransda qəbul olunan digər vacib qərarlar iqlim dəyişmələri ilə mübarizədə dönüş nöqtəsi olacaq.

### Heydər Əliyev Fondunun xeyriyyəçilik qayəsi

Azərbaycanda xeyriyyəçilik və humanitar yardım istiqamətində Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun göstərdiyi fəaliyyət müstəsna əhəmiyyətə malikdir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi fond təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda da xeyriyyəçilik işləri ilə diqqət çəkir. 2005-ci ildə baş verən və xeyli sayda insan tələfatına səbəb olan dəhşətli zəlzələ zamanı Azərbaycan Pakistana yardım edən ilk ölkələr sırasında idi. 2007-ci ildə Pakistanın Müzəffərabad şəhərində təbii fəlakət zamanı dağılmış 150 nəfərlik məktəbin yerində Heydər Əliyev Fondu tərəfindən 500 nəfərlik müasir məktəb inşa edilmişdi. 2012-ci ildə isə yenidən əsaslı təmir olunmuş qızlar məktəbinin açılış mərasimi keçirilmişdi. Azərbaycanın birinci xanımının Pakistan xalqına, xüsusən də uşaqlara göstərdiyi qayğı yüksək dəyərləndirilmişdi.

İki il əvvəl Türkiyədə baş verən zəlzələnin fəsadlarının aradan qaldırılması üçün Heydər Əliyev Fondunun göstərdiyi yardımlar da hər kəs tərəfindən təqdirlə qarşılandı.

Xatırladaq ki, 9 fevral 2023-cü ildə zəlzələ bölgəsinə səfər edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qaziantep hava limanında humanitar yardım gətirən Heydər Əliyev Fondunun əməkdaşları ilə görüşmüş, Azərbaycan dövləti və xalqının Türkiyədəki faciə ətrafında səfərbər olmasına görə təşəkkürünü bildirmişdi.

"İlham qardaşıma, Mehriban bacıma öz adımdan, millətim adından çox təşəkkür edirəm!" - söyləyən Rəcəb Tayyib Ərdoğan, "Biz tək bu gün deyil, ölənədək birlikdə olacağıq. Bir millət, iki dövlət olaraq yola davam edəcəyik!" deyə vurğulamışdı.

### Humanizm prinsipi

Humanizm prinsiplərinə söykənərək dünyanın bir çox ölkəsinə humanitar yardımlar göstərən Azərbaycan Ukraynada yaranmış son vəziyyətlə əlaqədar Ukrayna xalqına da mütəmadi olaraq humanitar yardım göndərir.

Hazırkı müharibə şəraiti ilə əlaqədar olaraq, ölkəmizin Ukraynaya göstərdiyi ümumi humanitar dəstək, o cümlədən bərpa və yenidənqurma yönümlü yardımların ümumi dəyəri artıq 44 milyon ABŞ dollarını keçib.

Onu da bildirək ki, cari ayın 5-də reabilitasiya və istirahət proqramından yararlanmaq üçün İrpen, Marqanets və Odessa bölgələrindən daha 30 ukraynalı uşaq Azərbaycana gətirilib. Ümumiyyətlə, indiyədək 400-ə yaxın ukraynalı uşaq Azərbaycanda bu proqramdan faydalanıb.

Ölkəmiz həm də ədalətli yeni dünya nizamının qurulması istiqamətində qlobal səylər göstərir, çağırışlar edir. Bütün beynəlxalq platformalarda neokolonializmə qarşı fəal mübarizə aparan Azərbaycan müasir dövrdə də müstəmləkə siyasəti həyata keçirən Fransa kimi ölkələri ifşa edir. Bu gün müstəmləkə altında olan ölkələrin nümayəndələrinin Bakı Təşəbbüs Qrupu (BTQ) ətrafında sıx birləşərək azadlıq səslərini dünyaya çatdırmaları da təsadüfi deyil. Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 6 iyul 2023-cü ildə Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən Bakı Təşəbbüs Qrupu yaradılıb. BTQ müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə dəstək verir.

Gətirdiyimiz nümunələrdən də göründüyü kimi, Prezident İlham Əliyevin yürütdüyü və humanizm prinsiplərinə dayanan çoxşaxəli siyasət sayəsində ölkəmizin qlobal nüfuzu gün keçdikcə artır. Azərbaycanın beynəlxalq proseslərdə oynadığı əhəmiyyətli rol və bəşəri problemlərin həllinə verdiyi töhfələr, etdiyi çağırışlar beynəlxalq birlik tərəfindən təqdirlə qarşılanır. Özü də bu acı təcrübəni vaxtilə yaşamış ölkə olaraq, Azərbaycan ehtiyacı olan ölkələrə yardım əlini uzatmağı bir ənənəyə çevirib və bundan sonra da bu xoşməramlı missiyasını uğurla davam etdirəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*